Azərbaycan Respublikası Prezidentinin
2025-ci il 17 sentyabr tarixli Sərəncamı
ilə təsdiq edilmişdir

# Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2025–2030-cu illər üçün

# DÖVLƏT PROQRAMI

## 1. Qısa xülasə

Azərbaycan Respublikasında sistemli və kompleks yanaşmanı təmin edən məqsədyönlü, konkret hədəflərə istiqamətlənmiş fəaliyyət nəticəsində dövlət siyasətinin prioritet istiqamətlərindən olan narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə tədbirləri ölkəmizdə həyata keçirilən siyasi, sosial-iqtisadi və hüquqi islahatlara uyğun olaraq daha intensiv xarakter almışdır.

Belə ki, narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi və narkomanlıqla bağlı problemlərin həlli, insanların sağlamlığının, rifahının, milli-mənəvi dəyərlərin, vətənpərvər və sağlam gəncliyin qorunub saxlanılması ümumdövlət vəzifəsi kimi müəyyən edilmişdir. Bu məqsədlə aparılan islahatlar cəmiyyətin, dövlətin və qeyri-hökumət təşkilatlarının səylərinin birləşdirilməsini, aidiyyəti dövlət orqanlarının (qurumlarının) müasir informasiya texnologiyalarının imkanlarından istifadə etməklə qarşılıqlı fəaliyyət göstərməsini, ixtisaslaşmış beynəlxalq təşkilatlarla və xarici ölkələrin müvafiq orqanları ilə əməkdaşlığın genişləndirilməsini və kompleks mübarizə tədbirləri görülməsini zəruri etmişdir.

Görülən işlərin davamlılığını təmin etmək məqsədilə “Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2025–2030-cu illər üçün Dövlət Proqramı” (bundan sonra – Dövlət Proqramı) hazırlanmışdır.

Dövlət Proqramının əsas məqsədi müasir informasiya texnologiyalarının imkanlarından istifadə olunmaqla narkotiklərin qanunsuz dövriyyəsinin və narkomanlığın yayılmasının maarifləndirmə yolu ilə qarşısının alınması, narkomanlığa düçar olmuş şəxslərin müalicəsi və reabilitasiyası sahəsində yeni üsulların tətbiqi, normativ hüquqi bazanın təkmilləşdirilməsi və digər kompleks tədbirlərin həyata keçirilməsindən ibarətdir.

Dövlət Proqramında bu sahədə müşahidə edilən qlobal trendlər və onların ölkə potensialına təsirləri qiymətləndirilmiş, mövcud vəziyyət təhlil edilmiş, uzunmüddətli dövr üçün strateji baxış formalaşdırılmış, hədəf göstəriciləri və prioritet istiqamətlər, o cümlədən icra müddətləri göstərilməklə müvafiq tədbirlər, əsas və digər icraçılar, gözlənilən təsirlər, icra mexanizmləri təsbit edilmişdir.

Dövlət Proqramının icrası Azərbaycan Respublikasında narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının daşınmasının qarşısının alınması istiqamətində əməliyyat-axtarış tədbirlərinin və profilaktik tədbirlərin gücləndirilməsini, narkomanlığın maarifləndirmə yolu ilə qarşısının alınmasını təmin etməklə yanaşı, narkoloji xidmətin keyfiyyətinin yaxşılaşdırılmasına, eyni zamanda beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklər çərçivəsində effektiv əməkdaşlığın təmin edilməsinə və qaçaqmalçılıq risklərinin azaldılmasına töhfə verilməsini təşviq edəcəkdir.

## 2. Qlobal trendlər

Qlobal miqyasda narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi üzrə müşahidə edilən dinamika bu təhdidlərə münasibətdə həm beynəlxalq, həm də regional səviyyədə əlaqələndirilmiş mübarizə tədbirləri görülməsini zəruri edir.

Birləşmiş Millətlər Təşkilatının Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin 2030-cu ilə qədər dünyada narkotik istifadəçilərinin sayının əlavə 11 faiz artmasına dair proqnozları qlobal miqyasda narkotik istifadəsinin ciddi bir problem olaraq qaldığını göstərir və bu sahədə daha effektiv tədbirlərin həyata keçirilməsi, dövlətlər üçün milli təhlükəsizliyin təmin edilməsi baxımından yeni çağırışlar doğurur.

Azərbaycan Respublikasında narkomanlığa və narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizə istiqamətində mühüm işlər görülmüşdür. Bununla yanaşı, Azərbaycan Respublikası BMT-nin 1961-ci il tarixli "Narkotik vasitələr haqqında" Vahid Konvensiyasına, 1971-ci il tarixli "Psixotrop maddələr haqqında" Konvensiyasına, 1988-ci il tarixli "Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında" Konvensiyasına və digər beynəlxalq sazişlərə qoşulmuşdur. Bu da narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizənin beynəlxalq prinsip və normalar əsasında gücləndirilməsinə təminat vermişdir.

XXI əsrin qlobal trendləri və müasir çağırışları rəqəmsal nəzarət sistemlərinin və hüquqi çərçivədə innovativ metodların tətbiqini zəruri edir. Bu yanaşma narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizədə müasir çağırışlara cavab verən və dayanıqlılıq təmin edən bir sistemin qurulmasına əsas verir.

Beləliklə, Azərbaycan Respublikasında həyata keçirilən məqsədyönlü siyasət və səmərəli tədbirlər, həmçinin qlobal çağırışlar narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizənin daha da sistemli təşkilini tələb edir. Bu sahədə yüksəkixtisaslı kadr potensialının yaradılması, narkoloji xidmət müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi, innovativ texnologiyaların tətbiqi və antinarkotik təbliğatı işlərinin müasir dövrün tələblərinə uyğun təkmilləşdirilməsi əsas vəzifələrdən biri hesab edilir.

## 3. Mövcud vəziyyətin təhlili

Müasir dünyanın əsas problemlərindən biri hesab edilən narkotiklərin qanunsuz dövriyyəsi və narkomanlıq qlobal xarakter alaraq, bəşəriyyət üçün böyük təhlükə yaradır. Bu baxımdan, dünya dövlətləri narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının aşkar edilməsi və qanunsuz dövriyyəsinin qarşısının alınması, habelə bu fəaliyyət nəticəsində dəyə biləcək zərərlərin minimuma endirilməsi məqsədilə narkomanlığa qarşı mübarizə üsullarını və müalicə metodlarını daha da təkmilləşdirir və beynəlxalq səviyyədə qarşılıqlı əməkdaşlıq imkanlarını artırırlar.

Ölkəmizdə narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizə sahəsində geniş tədbirləri özündə ehtiva edən dövlət proqramları – Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 15 iyul tarixli 371 nömrəli Fərmanı ilə "Narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi və narkomanlığın yayılması ilə mübarizə üzrə Proqram" (2000–2006-cı illər üçün), 2007-ci il 28 iyun tarixli 2271 nömrəli Sərəncamı ilə "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi və narkomanlığın yayılması ilə mübarizə üzrə Proqram (2007–2012-ci illər)", 2013-cü il 24 iyun tarixli 2966 nömrəli Sərəncamı ilə "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2013–2018-ci illər üçün Dövlət

Proqramı” və 2019-cu il 22 iyul tarixli 1334 nömrəli Sərəncamı ilə “Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019–2024-cü illər üçün Dövlət Proqramı” təsdiq edilmiş və uğurla həyata keçirilmişdir.

Normativ hüquqi bazanın təkmilləşdirilməsi, narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının məhv edilməsi sahəsində işin təşkilinin və nəzarətin gücləndirilməsi, narkomaniya ilə bağlı müalicə alan şəxslər üzərində daha keyfiyyətli müalicə və nəzarət mexanizminin yaradılması, müalicə metodikasının təkmilləşdirilməsi, narkoloji tibb müəssisələrinin kadr potensialının gücləndirilməsi və maddi-texniki təchizatının yaxşılaşdırılması, aidiyyəti qurumlarla əməkdaşlığın, narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə üzrə rayon və şəhər komissiyalarının fəaliyyətlərinin səmərəliliyinin artırılması, təbliğat və maarifləndirmə işlərinin daha da gücləndirilməsi və davamlılığının təmin edilməsi istiqamətində zəruri tədbirlər görülmüşdür.

Əməliyyat-axtarış və istintaq, eləcə də narkotik vasitələrin və psixotrop maddələrin qaçaqmalçılıq yolu ilə ölkəyə gətirilməsinin qarşısının alınması sahəsində fəaliyyət gücləndirilmiş, sağlam həyat tərzinin təbliği və narkomanlığın zərəri ilə bağlı sosial maarifləndirmə işi, o cümlədən uşaq və gənclər arasında narkomaniyaya qarşı təbliğat və maarifləndirmə işləri genişləndirilmişdir.

2019–2024-cü illər ərzində hüquq mühafizə orqanları tərəfindən müasir telekommunikasiya və informasiya vasitələrinin imkanlarından istifadə edilərək narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizə işinin gücləndirilməsi nəticəsində ümumilikdə 47863 fakt aşkarlanmış, onlardan 16458-i narkotik vasitələrin və psixotrop maddələrin satışı, 29148-i narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz əldə edilib saxlanılması, 1877-si narkotik xassəli bitkilərin qanunsuz olaraq kultivasiya edilməsi, 380-i isə digər əməllər olmuşdur. Bundan başqa, 33,5 ton müxtəlif növ narkotik vasitə, psixotrop maddə və onların prekursorları qanunsuz dövriyyədən çıxarılmışdır ki, onun da 12,73 tonunu heroin, 15,01 tonunu marixuana, 2,2 tonunu tiryək, 0,33 tonunu həşiş, 0,007 tonunu kokain, 3,223 tonunu isə digər narkotik vasitələr, psixotrop maddələr və onların prekursorları təşkil etmişdir.

Göstərilən illər ərzində cinayət məsuliyyətinə 39002 şəxs, o cümlədən 510 əcnəbi cəlb olunmuşdur. Onlardan 37978 nəfəri kişi, 1024 nəfəri isə qadındır. Həmçinin 21464 məhkəmə hökmü və qərarı əsasında ümumilikdə 14,4 ton müxtəlif növ narkotik vasitə və psixotrop maddə, eləcə də 156291 ədəd narkotik tərkibli çətənə bitkisi müvafiq komissiyalar tərəfindən məhv edilmişdir.

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Respublika Narkoloji Mərkəzinin təqdim etdiyi məlumata görə, 2024-cü ilin sonuna dispanser qeydiyyatında olan narkotik istifadəçilərinin sayı 40490 nəfər olmuşdur ki, onlardan 39485 nəfəri kişi, 1005 nəfəri isə qadındır. Qeydiyyatda olanların 20182 nəfəri opioidlərin, 8611 nəfəri kannabinoidlərin, 11697 nəfəri isə eyni zamanda bir neçə narkotik maddənin qəbul edilməsi nəticəsində psixi və davranış pozuntuları yaranmış şəxslərdir.

Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının məhv edilməsi sahəsində işin daha səmərəli təşkili və müvafiq komissiyaların işinin daha dəqiq tənzimlənməsi və onların regionlarda fəaliyyətinin hüquqi əsaslarının müəyyən edilməsi üçün mövcud normativ hüquqi baza təkmilləşdirilmişdir.

Göstərilən istiqamətdə fəaliyyətin gücləndirilməsi, yeni üsul və metodların tətbiqi məqsədilə çəkilmiş sənədli və bədii filmlərin, həmçinin maarifləndirici proqramların nümayiş etdirilməsi, sosial şəbəkələrin imkanlarından istifadə edilməklə geniş auditoriya üçün nəzərdə tutulmuş maarifləndirici və təbliğat xarakterli materialların yayılması təşkil edilmişdir.

Bundan başqa, əhalinin müxtəlif qrupları, o cümlədən uşaqlar və gənclər, cəzaçəkmə müəssisələrində cəza çəkən məhkumlar arasında antinarkotik təbliğatının və maarifləndirmə aparılmasını nəzərdə tutan tədbirlər planlarının icrası nəticəsində maarifləndirmə işi genişləndirilmişdir.

Bununla yanaşı, Azərbaydan Respublikasında görülən ardıcıl və məqsədyönlü işlər, qəbul edilmiş bir sıra mühüm normativ hüquqi aktlar, həyata keçirilən zəruri institusional tədbirlər qurumlararası əməkdaşlığı daha da möhkəmləndirəcək və narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı birgə mübarizəyə öz töhfəsini verəcəkdir.

## 4. Hədəf göstəriciləri

4.1. Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi nəticəsində aşağıdakı hədəflərə nail olunması nəzərdə tutulur:

4.1.1. hüquq mühafizə orqanları tərəfindən həyata keçirilən əməliyyat-axtarış tədbirləri nəticəsində müsbət göstəricilərin əldə edilməsi;

4.1.2. narkomaniya xəstəliyi ilə əlaqədar tibbi xarakterli məcburi tədbirlərin həyata keçiriləcəyi yeni tibb müəssisəsinin fəaliyyətinin təmin edilməsi;

4.1.3. beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklər çərçivəsində effektiv əməkdaşlığın təmin edilməsi;

4.1.4. narkotik vasitələrdən və psixotrop maddələrdən sui-istifadə edən şəxslərin könüllülük prinsipi əsasında müalicəsi və sağlam həyat tərzinə qaytarılması işinin təşkilində səmərəliliyin artırılması;

4.1.5. narkomaniya xəstəliyindən xilas olan şəxslərin cəmiyyətə inteqrasiyasını və məşğulluğunu hədəfləyən layihələrin həyata keçirilməsi;

4.1.6. uşaq və gənclər arasında milli-mənəvi dəyərlərin təbliği, sağlam və narkomaniyadan uzaq gəncliyin formalaşmasına töhfə verilməsi.

## 5. Dövlət Proqramının məqsədləri

5.1. Dövlət Proqramının məqsədləri aşağıdakılardır:

5.1.1. narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində əməliyyat-axtarış tədbirlərinin və profilaktik tədbirlərin gücləndirilməsi;

5.1.2. antinarkotik təbliğatının səmərəliliyinin artırılması;

5.1.3. ictimai maarifləndirmə işinin əhatəsinin genişləndirilməsi;

5.1.4. aidiyyəti qeyri-hökumət təşkilatlarının, o cümlədən digər vətəndaş cəmiyyəti institutlarının tədbirlərin icrasına cəlb olunması;

5.1.5. müasir informasiya texnologiyalarının imkanlarından istifadə etməklə, narkotiklərin qanunsuz dövriyyəsinin və narkomanlığın yayılmasının maarifləndirmə yolu ilə qarşısının alınması;

5.1.6. narkoloji xidmətin təkmilləşdirilməsi və maddi-texniki bazasının möhkəmləndirilməsi;

5.1.7. narkotik asılılığından əziyyət çəkən şəxslər üçün psixoloji dəstək proqramlarının hazırlanması;

5.1.8. narkomanlığa düçar olmuş şəxslərin müalicəsi və reabilitasiyası istiqamətində yeni üsulların tətbiqi;

5.1.9. normativ hüquqi bazanın təkmilləşdirilməsi.

## 6. Dövlət Proqramının prioritet istiqamətləri

6.1. Dövlət Proqramı çərçivəsində narkomanlığa, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı müvafiq işlər aşağıdakı prioritet istiqamətlər üzrə həyata keçiriləcəkdir:

**6.1.1. Təşkilati tədbirlər:**

6.1.1.1. **Əsaslandırma:** narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinin, habelə narkomanlığın yayılmasının qarşısının alınması, göstərilən sahədə hüquq mühafizə, səhiyyə və digər aidiyyəti dövlət orqanlarının (qurumlarının) işinin daha səmərəli icrasının təmin edilməsi məqsədilə təşkilati tədbirlərin gücləndirilməsinə ehtiyac vardır;

6.1.1.2. **Görüləcək tədbirlər:**

6.1.1.2.1. narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair illik hesabatın hazırlanması;

6.1.1.2.2. qanunsuz dövriyyədən çıxarılmış narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının ilkin tədqiqatını və məhkəmə ekspertizasını aparan laboratoriyaların texniki təminatının yaxşılaşdırılması üçün əlavə tədbirlər görülməsi;

6.1.1.2.3. narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinin və narkomanlığın yayılmasının qarşısını almaq, habelə vətəndaşlara daha operativ və səmərəli xidmətin təşkili məqsədilə “802 qaynar xətt” xidmətinin maddi-texniki bazasının gücləndirilməsi;

6.1.1.2.4. Azərbaycan Respublikasına qaçaqmalçılıq yolu ilə narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının daşınmasının qarşısının alınması istiqamətində əməliyyat-axtarış tədbirlərinin və profilaktik tədbirlərin gücləndirilməsi;

6.1.1.2.5. narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığın yayılmasına qarşı mübarizə sahəsində beynəlxalq təcrübədən istifadə etməklə əməkdaşların peşəkarlığının yüksəldilməsi və təcrübə mübadiləsi məqsədilə seminarların, təlimlərin və digər tədbirlərin keçirilməsi;

6.1.1.2.6. narkomaniya xəstəliyi ilə əlaqədar tibbi xarakterli məcburi tədbirlərin həyata keçiriləcəyi yeni tibb müəssisəsinin fəaliyyətə başlamasının təmin edilməsi;

6.1.1.2.7. narkoloji xidmətin keyfiyyətinin yaxşılaşdırılması məqsədilə reabilitasiya mərkəzlərinin yaradılması;

6.1.1.2.8. narkomanlıq xəstəliyindən əziyyət çəkən şəxslərin müalicəsinin təkmilləşdirilməsi məqsədilə Azərbaycan Respublikasında fəaliyyət göstərən dövlət narkoloji tibb müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi;

6.1.1.2.9. narkoloji xidmətin təkmilləşdirilməsi və peşəkar kadrlarla təmin olunması məqsədilə həkim-narkoloq və klinik (tibbi) psixoloqların sayının artırılması istiqamətində əlavə tədbirlər görülməsi;

6.1.1.2.10. narkomanlığın erkən müəyyən edilməsi və könüllülük prinsipi əsasında müalicənin səmərəli təşkili məqsədilə rayon (şəhər) xəstəxanalarında və poliklinikalarında fəaliyyət göstərən narkoloji tibb kabinetlərinin işinin təkmilləşdirilməsi istiqamətində əlavə tədbirlərin görülməsi;

6.1.1.2.11. narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi ilə bağlı cinayət işləri üzrə cinayət mühakimə icraatı zamanı belə cinayətlərin törədilməsini doğuran səbəb və şəraitin öyrənilməsi, eləcə də qarşısının alınması üçün tədbirlər görülməsi;

6.1.1.2.12. müxtəlif yaş qrupları üzrə narkomanlığın yayılma dərəcəsinin müəyyən edilməsi məqsədilə sosial araşdırmalar aparılması, nəticələrinin ümumiləşdirilməsi və müvafiq təkliflərin hazırlanması;

6.1.1.2.13. narkotik asılılığının qarşısının alınması məqsədilə beynəlxalq təcrübədə olan yeniliklərin tətbiqi;

6.1.1.2.14. narkotik istifadəçiləri və onların yaxın qohumları, habelə onlarla birgə yaşayan digər şəxslər üçün onlayn məsləhətlər verilməsi məqsədilə klinik (tibbi) psixoloq və həkim-narkoloqların iştirakı ilə virtual dəstək mexanizminin yaradılması;

6.1.1.2.15. narkotik asılılığından əziyyət çəkən şəxslərin müalicəsi prosesində tətbiq üçün psixoloji dəstək proqramlarının hazırlanması;

6.1.1.2.16. narkotik vasitələrin və psixotrop maddələrin gizli pərakəndə satış şəbəkəsinin ifşası və bu cinayəti törədən şəxslərin vaxtında məsuliyyətə cəlb edilməsi istiqamətində təşkilati və praktiki tədbirlərin gücləndirilməsi;

6.1.1.2.17. narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi məqsədilə istifadə edilən maliyyə mexanizmlərini, ödəniş üsul və vasitələrini, satışdan əldə edilən vəsaitin yönəldildiyi əsas sahələri (aktivləri), habelə belə vəsaitlərin əsas leqallaşdırılma üsullarını müəyyənləşdirməklə risk indikatorlarının formalaşdırılması;

6.1.1.2.18. cinayət təqibi üzrə məhkəməyədək icraat zamanı qanunsuz dövriyyədən çıxarılmaqla maddi sübut kimi götürülmüş narkotik vasitələrin, psixotrop maddələrin, onların prekursorlarının və güclü təsir edən maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməsi və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsi ilə bağlı normaların tətbiqi təcrübəsinin ümumiləşdirilməsi və həmin normaların tətbiqinə nəzarətin gücləndirilməsi;

6.1.1.3. **Gözlənilən nəticə və nəticə indikatorları:**

6.1.1.3.1. narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair illik hesabatın hazırlanması, çap edilməsi, xidməti istifadə üçün aidiyyəti dövlət orqanlarına (qurumlarına) göndərilməsi və Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının rəsmi internet saytında yerləşdirilməsi;

6.1.1.3.2. zəruri texniki vasitələrin alınması və laboratoriyaların fəaliyyətində tətbiqi nəticəsində narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının ilkin tədqiqatının və məhkəmə ekspertizasının keyfiyyət səviyyəsinin daha da yaxşılaşdırılması;

6.1.1.3.3. vətəndaş məmnunluğunun təmin edilməsi məqsədilə səmərəli xidmətin təşkili;

6.1.1.3.4. qaçaqmalçılıq yolu ilə narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının ölkəyə daşınması hallarının qarşısının alınması, belə halların aşkar olunma səviyyəsinin yüksəldilməsi;

6.1.1.3.5. əməkdaşların peşəkarlığının yüksəldilməsi, onlar tərəfindən beynəlxalq təcrübənin mənimsənilməsinin və fəaliyyətlərində tətbiqinin təmin edilməsi;

6.1.1.3.6. tibbi xarakterli məcburi tədbirlərin həyata keçiriləcəyi yeni tibb müəssisəsinin tikintisinin başa çatdırılması və fəaliyyətinin təmin edilməsi;

6.1.1.3.7. reabilitasiya mərkəzlərinin formalaşdırılması prosesinin başa çatdırılması və onların fəaliyyətə başlaması;

6.1.1.3.8. Azərbaycan Respublikasında fəaliyyət göstərən dövlət narkoloji tibb müəssisələrində xidmət keyfiyyətinin yüksəldilməsi;

6.1.1.3.9. zəruri tədbirlər görülməsi nəticəsində narkoloji xidmətin təkmilləşdirilməsi və peşəkar kadrlarla təmin edilməsi;

6.1.1.3.10. rayon (şəhər) xəstəxanalarında və poliklinikalarında fəaliyyət göstərən narkoloji tibb kabinetlərinin işinin təkmilləşdirilməsi və səmərəliliyinin artırılması məqsədilə zəruri tədbirlər görülməsi;

6.1.1.3.11. zəruri tədbirlər görülməsi nəticəsində narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi sahəsində cinayətlərin

törədilməsinə səbəb olan halların aradan qaldırılmasının təmin edilməsi, gələcəkdə baş verməsinin qarşısının alınması;

6.1.1.3.12. sosial araşdırmaların nəticələrinin təhlili, qiymətləndirilməsi, ümumiləşdirilməsi və müvafiq təkliflərin hazırlanması;

6.1.1.3.13. narkotik asılılığının qarşısının alınması məqsədilə beynəlxalq təcrübədə olan yeniliklərin tətbiqi;

6.1.1.3.14. həkim-narkoloq və klinik (tibbi) psixoloqlardan ibarət virtual dəstək qruplarının fəaliyyətə başlaması;

6.1.1.3.15. narkotik asılılığından əziyyət çəkən şəxslərin müalicəsi prosesində psixoloji dəstək proqramlarının tətbiqi;

6.1.1.3.16. hüquq mühafizə orqanları tərəfindən həyata keçirilən əməliyyat-axtarış tədbirləri nəticəsində müsbət göstəricilərin əldə edilməsi;

6.1.1.3.17. narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi məqsədilə istifadə edilən maliyyə mexanizmlərinin, ödəniş üsul və vasitələrinin, satışdan əldə edilən vəsaitin yönəldildiyi əsas sahələrin, belə vəsaitlərin əsas leqallaşdırılma üsullarının müəyyən edilməsi;

6.1.1.3.18. maddi sübut kimi götürülmüş narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının və güclü təsir edən maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməsi və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsinin geniş tətbiqinə nail olunması;

6.1.1.4. **Gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:**

6.1.1.4.1. qanunsuz dövriyyədən çıxarılmış narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının ilkin tədqiqatını və məhkəmə ekspertizasını aparan laboratiyaların texniki təminatının yaxşılaşdırması ilə əlaqədar tədbirlər görülməsi üçün əlavə maliyyə vəsaitinə və maddi-texniki təchizata ehtiyac vardır. Çünki, həmin ehtiyacların qarşılanması zamanı müəyyən çətinliklər yarana bilər. Bu məqsədlə Dövlət Proqramının 7-ci hissəsində nəzərdə tutulan mənbələr hesabına maliyyələşdirilmə aparılması üçün aidiyyəti tədbirlər görülə bilər;

6.1.1.4.2. reabilitasiya mərkəzlərinin yaradılması, habelə narkoloji dispanserlərin maddi texniki bazasının gücləndirilməsi məqsədilə tədbirlər görülməsi üçün əlavə maliyyə vəsaitinə və maddi-texniki təchizata ehtiyac vardır ki, həmin ehtiyacların qarşılanması zamanı müəyyən çətinliklər yarana bilər. Bu məqsədlə, Dövlət Proqramının 7-ci hissəsində nəzərdə tutulan mənbələr hesabına maliyyələşdirilmə aparılması üçün aidiyyəti tədbirlər görülə bilər;

**6.1.2. Normativ hüquqi bazanın təkmilləşdirilməsi:**

6.1.2.1. **Əsaslandırma:** Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizə sahəsini tənzimləyən normativ hüquqi bazanın təkmilləşdirilməsi zəruridir;

6.1.2.2. **Görüləcək tədbirlər:**

6.1.2.2.1. narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizə sahəsini tənzimləyən normativ hüquqi bazanın təkmilləşdirilməsinə dair təkliflər verilməsi;

6.1.2.2.2. narkotik asılılığı olan şəxslərin narkoloji xəstələr üçün fəaliyyət məhdudiyyəti nəzərdə tutulmuş peşə növü və vəzifələr üzrə işə qəbulunun qarşısının alınmasından ötrü işəgötürənin məsuliyyətinin artırılması məqsədilə normativ hüquqi bazanın təkmilləşdirilməsinə dair təkliflər verilməsi;

6.1.2.2.3. Azərbaycan Respublikasının vətəndaşlarına, əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə narkotik istifadəçisi kimi qeydiyyatda olub-olmaması

barədə arayışların verilməsi prosesinin sadələşdirilməsi məqsədilə bu xidmətin “ASAN xidmət” mərkəzləri tərəfindən həyata keçirilməsinin təmin edilməsi üçün normativ hüquqi aktlarda dəyişiklik edilməsi;

6.1.2.2.4. Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının fəaliyyətinin səmərəliliyinin artırılması məqsədilə Dövlət Komissiyası haqqında Əsasnamənin təkmilləşdirilməsinə dair təkliflər verilməsi;

6.1.2.2.5. narkomanlıq xəstəliyinə düçar olan şəxslərin müalicəsi və reabilitasiyası sahəsində normativ hüquqi bazanın təkmilləşdirilməsinə dair təkliflər verilməsi;

6.1.2.3. **Gözlənilən nəticə və nəticə indikatorları:**

6.1.2.3.1. narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizə sahəsini tənzimləyən normativ hüquqi bazanın təkmilləşdirilməsi məqsədilə müvafiq normativ hüquqi akt layihələrinin hazırlanması və təsdiq üçün aidiyyəti üzrə təqdim edilməsi;

6.1.2.3.2. narkotik asılılığı olan şəxslərin narkoloji xəstələr üçün fəaliyyət məhdudiyyəti nəzərdə tutulmuş peşə növü və vəzifələr üzrə işə qəbul edilməsinin qarşısının alınmasından ötrü işəgötürənin məsuliyyətinin artırılması məqsədilə müvafiq normativ hüquqi akt layihələrinin hazırlanması və təsdiq üçün aidiyyəti üzrə təqdim edilməsi;

6.1.2.3.3. Azərbaycan Respublikasının vətəndaşlarına, əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə narkotik istifadəçisi kimi qeydiyyatda olub-olmaması barədə arayışların verilməsi prosesinin sadələşdirilməsi məqsədilə bu xidmətin “ASAN xidmət” mərkəzləri tərəfindən həyata keçirilməsinin təmin edilməsi ilə əlaqədar müvafiq normativ hüquqi akt layihələrinin hazırlanması və təsdiq üçün aidiyyəti üzrə təqdim edilməsi;

6.1.2.3.4. Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının fəaliyyətinin səmərəliliyinin artırılması məqsədilə Dövlət Komissiyası haqqında Əsasnamənin təkmilləşdirilməsinə dair müvafiq normativ hüquqi akt layihəsinin hazırlanması və təsdiq üçün aidiyyəti üzrə təqdim edilməsi;

6.1.2.3.5. narkomanlıq xəstəliyinə düçar olan şəxslərin müalicəsi və reabilitasiyası sahəsində normativ hüquqi bazanın təkmilləşdirilməsi məqsədilə müvafiq normativ hüquqi akt layihələrinin hazırlanması və təsdiq üçün aidiyyəti üzrə təqdim edilməsi;

6.1.2.4. **Gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:**

6.1.2.4.1. narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizə sahəsində bir sıra normativ hüquqi akt layihələrinin aidiyyəti dövlət orqanları (qurumları) ilə razılaşdırılmasında gecikmələr baş verə bilər. Bununla əlaqədar müvafiq işçi qrupların yaradılması nəzərdə tutulur;

**6.1.3. Beynəlxalq tədbirlər:**

6.1.3.1. **Əsaslandırma:** narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizə sahəsində ixtisaslaşmış beynəlxalq təşkilatlarla və xarici ölkələrin aidiyyəti dövlət orqanları (qurumları) ilə əməkdaşlığın gücləndirilməsinə ehtiyac vardır;

6.1.3.2. **Görüləcək tədbirlər:**

6.1.3.2.1. narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizə sahəsində ixtisaslaşmış

beynəlxalq təşkilatlarla və xarici ölkələrin aidiyyəti dövlət orqanları (qurumları) ilə əməkdaşlığın davam etdirilməsi;

6.1.3.2.2. Azərbaycan Respublikası ilə xarici dövlətlər arasında narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində imzalanmış beynəlxalq müqavilələrin öhdəliklərinin effektiv icrasının təmin edilməsi istiqamətində əlavə tədbirlər görülməsi;

6.1.3.2.3. narkotik vasitələrin qeyri-tibbi qəbulunun qarşısının alınması istiqamətində maarifləndirmə işinin səmərəli təşkili məqsədilə beynəlxalq təcrübənin öyrənilməsi və tətbiqi;

6.1.3.2.4. narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinin və narkomanlığın qarşısının alınmasına dair beynəlxalq konfranslarda, seminarlarda və digər tədbirlərdə aidiyyəti dövlət orqanları (qurumları) mütəxəssislərinin iştirakının təmin edilməsi;

6.1.3.2.5. narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsindən əldə edilən əmlakın leqallaşdırılmasının aşkarlanması və qarşısının alınması məqsədilə xarici ölkələrin aidiyyəti dövlət orqanları (qurumları) ilə və beynəlxalq təşkilatlarla əməkdaşlığın, məlumat və təcrübə mübadiləsinin genişləndirilməsi;

6.1.3.3. **Gözlənilən nəticə və nəticə indikatorları:**

6.1.3.3.1. zəruri tədbirlərin həyata keçirilməsi nəticəsində beynəlxalq əməkdaşlıq çərçivəsində müvafiq sahədə səmərəlilik göstəricilərinin yaxşılaşması;

6.1.3.3.2. müvafiq sahədə imzalanmış beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklər çərçivəsində effektiv əməkdaşlığın təmin edilməsi;

6.1.3.3.3. maarifləndirmə işinin səmərəli təşkili məqsədilə beynəlxalq təcrübənin tətbiqi və bu işin keyfiyyətinin artırılması;

6.1.3.3.4. aidiyyəti dövlət orqanlarının (qurumlarının) mütəxəssislərinin beynəlxalq konfranslarda, seminarlarda və digər tədbirlərdə iştirakının təmin edilməsi, müvafiq sahədə beynəlxalq təcrübənin öyrənilməsi və təcrübə mübadiləsinin aparılması;

6.1.3.3.5. müvafiq təcrübə əsasında Azərbaycan Respublikasında həyata keçiriləcək kompleks tədbirlərin müəyyən edilməsi;

6.1.3.4. **Gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:**

6.1.3.4.1. xarici ölkələrlə və beynəlxalq təşkilatlarla əməkdaşlıqda əlaqə çatışmazlıqları və koordinasiya zəifliyi riski vardır. Effektiv əlaqə və koordinasiya mexanizmlərinin qurulması, müntəzəm beynəlxalq görüşlər keçirilməsi, əməkdaşlıq sazişlərinin yenilənməsi və qarşılıqlı etimadın gücləndirilməsi yolu ilə bu riskin azaldılması nəzərdə tutulur;

**6.1.4. Profilaktika və maarifləndirmə tədbirləri:**

6.1.4.1. **Əsaslandırma:** antinarkotik təbliğatı və maarifləndirmə işlərinin əhatəsinin genişləndirilməsi, narkomanlıq xəstəliyindən əziyyət çəkən şəxslərin cəmiyyətə inteqrasiyasının və məşğulluğunun təmin edilməsinə zərurət vardır;

6.1.4.2. **Görüləcək tədbirlər:**

6.1.4.2.1. narkotik vasitələrdən və psixotrop maddələrdən sui-istifadə edən şəxslərin vaxtında aşkarlanması, könüllülük prinsipi əsasında müalicəsi və sağlam həyat tərzinə qaytarılması işinin təşkilində tibb müəssisələrinin ərazi üzrə polis orqanları ilə qarşılıqlı əlaqələrinin genişləndirilməsi;

6.1.4.2.2. uşaq və gənclər üçün təşkil olunan narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizə ilə bağlı maarifləndirici yay düşərgələrinə internat tipli ümumi təhsil müəssisələrinin yuxarı sinif şagirdlərinin cəlb edilməsi;

6.1.4.2.3. narkotik vasitələrdən və psixotrop maddələrdən sui-istifadə edən şəxslər arasında aparılan profilaktik tədbirlərin keyfiyyətinin artırılması məqsədilə həmin tədbirləri icra edən şəxslərin peşəkarlığının yüksəldilməsi üzrə təlimlərin keçirilməsi;

6.1.4.2.4. narkomanlıq xəstəliyindən xilas olan şəxslərin əmək bazarına inteqrasiyası və məşğulluq imkanlarına çıxışının təmin edilməsi;

6.1.4.2.5. antinarkotik təbliğatı işinin gücləndirilməsi məqsədilə cəzaçəkmə müəssisələrində cəza çəkən şəxslər və penitensiar müəssisələrin əməkdaşları üçün təlimlərin keçirilməsi;

6.1.4.2.6. ümumi təhsil müəssisələrinin yuxarı sinif şagirdləri arasında təbliğat işlərinin daha təsirli metodlarla aparılması, rayon və şəhərlərdə uşaq və gənclər arasında maarifləndirmə işinin səmərəli təşkili məqsədilə müxtəlif mövzularda seminar, konfrans, dəyirmi masa və digər tədbirlərin keçirilməsi, həmçinin idman yarışlarının təşkili;

6.1.4.2.7. narkotik asılılığı problemində ailələrin rolu, valideyn məsuliyyəti və bu sahə üzrə məlumatlılığın artırılması;

6.1.4.2.8. narkotik tərkibli bitkilərin qanunsuz əkinlərinin və yabanı halda bitmiş sahələrinin aşkar olunması və həmin bitkilərin məhv edilməsi, habelə bu məqsədlə hər il xüsusi kompleks əməliyyat-axtarış tədbirlərinin və profilaktik tədbirlərin həyata keçirilməsi;

6.1.4.2.9. narkomanlığın profilaktikasının daha səmərəli təşkili məqsədilə ümumi təhsil müəssisələrində çalışan psixoloq və tibb işçiləri üçün təlimatın təsdiq edilməsi;

6.1.4.2.10. antinarkotik təbliğatı işlərinin sosial şəbəkələr üzərindən aparılması məqsədilə müxtəlif həştəqlərlə sosial aksiyaların həyata keçirilməsi;

6.1.4.2.11. narkomanlığın xüsusilə geniş yayıldığı rayon və şəhərlərdə narkotik vasitələrin qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı kompleks tədbirlərin həyata keçirilməsi;

6.1.4.2.12. narkotik vasitələrin və psixotrop maddələrin qəbulu ilə bağlı problemlər haqqında idmançıları maarifləndirmək məqsədilə müasir metodiki vəsaitlərdən istifadə etməklə təbliğat işinin təşkili, bu sahədə qadağan edilmiş maddə və üsullardan istifadəyə qarşı mübarizə mexanizmlərinin təkmilləşdirilməsi, aidiyyəti dövlət orqanları (qurumları) ilə əlaqə yaradılması və mövcud beynəlxalq təcrübənin tətbiqi;

6.1.4.2.13. qeyri-hökumət təşkilatları nümayəndələrinin narkotik vasitələrə və psixotrop maddələrə dair təyin edilmiş ekspertizalar, həmçinin narkotik asılılığından müalicə və reabilitasiya prosesi barədə məlumatlandırılması məqsədilə görüşlərin təşkili;

6.1.4.2.14. narkotik və psixotrop maddələr haqqında məlumatlılığın artırılması məqsədilə ümumi təhsil müəssisələrinin rəhbərliyi, müəllimləri, psixoloqları, valideynlər şurasının üzvləri və şagirdləri üçün seminarların keçirilməsi;

6.1.4.2.15. ali, orta ixtisas və peşə təhsili müəssisələrində tələbələr arasında antinarkotik təbliğatı işinin əhatəsinin genişləndirilməsi məqsədilə gənclər təşkilatları tərəfindən elmi-praktiki konfransların və digər tədbirlərin həyata keçirilməsi;

6.1.4.2.16. sağlam həyat tərzinin təbliği və narkomanlığın zərəri ilə bağlı teatr tamaşalarının, filmlərin hazırlanması;

6.1.4.2.17. uşaq və gənclərin iştirakı ilə narkomaniya, alkoqolizm və toksikomanlığa qarşı poster, videoçarx, qısametrajlı film və fləşmobların hazırlanması;

6.1.4.2.18. narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə tədbirləri barədə media subyektlərində televiziya və radio proqramlarının təşkili və məqalələrin dərc edilməsi;

6.1.4.2.19. Azərbaycan Respublikasının Silahlı Qüvvələrində və hərbi xidmət nəzərdə tutulmuş digər dövlət orqanlarında (dövlət oqranlarının strukturuna daxil olan qurumlarda) həqiqi hərbi xidmət keçənlər arasında narkomanlığın cəmiyyətə və insan sağlamlığına zərəri barədə təbliğat işinin gücləndirilməsi;

6.1.4.2.20. müasir informasiya texnologiyalarının imkanları nəzərə alınmaqla, sağlam həyat tərzinin təbliği və narkomanlığın zərəri ilə bağlı sosial maarifləndirmə işinin daha da genişləndirilməsi, sosial çarxların hazırlanması və media subyektlərində, sosial şəbəkələrdə geniş işıqlandırılması;

6.1.4.2.21. narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində normativ hüquqi aktların müddəalarının və tələblərinin əhaliyə izah edilməsi;

6.1.4.2.22. antinarkotik təbliğatı və təşviqatı işlərinin gücləndirilməsi məqsədilə maarifləndirici əyani vəsaitlərin hazırlanması;

6.1.4.3. **Gözlənilən nəticə və nəticə indikatorları:**

6.1.4.3.1. narkotik vasitələrdən və psixotrop maddələrdən sui-istifadə edən şəxslərin könüllülük prinsipi əsasında müalicəsi və sağlam həyat tərzinə qaytarılması işinin təşkilində səmərəliliyin artırılması;

6.1.4.3.2. aidiyyəti dövlət orqanları (qurumları) nümayəndələrinin iştirakı ilə düşərgələrdə şagirdlər arasında zərərli vərdişlərə qarşı təbliğat işlərinin aparılması və şagirdlərin asudə vaxtının səmərəli təşkili;

6.1.4.3.3. müvafiq sahədə aparılan profilaktik tədbirlərin keyfiyyətinin artırılması məqsədilə həmin tədbirləri icra edən şəxslər üçün təlimlərin keçirilməsi nəticəsində onların peşəkarlıq səviyyəsinin artırılmasının təmin edilməsi;

6.1.4.3.4. narkomanlıq xəstəliyindən xilas olan şəxslərin əmək bazarına inteqrasiyası və məşğulluğunun təmin edilməsi;

6.1.4.3.5. cəzaçəkmə müəssisələrində cəza çəkən şəxslər arasında sağlam həyat tərzinin təbliği, həmçinin penitensiar müəssisələrin əməkdaşları üçün bu sahədə təlimlərin keçirilməsi, məlumatlılıq səviyyəsinin artırılması;

6.1.4.3.6. uşaq və gənclər arasında maarifləndirmə işinin səmərəli təşkili məqsədilə müxtəlif mövzularda seminar, konfrans, dəyirmi masa və digər tədbirlərin keçirilməsi, həmçinin idman yarışlarının təşkili;

6.1.4.3.7. maarifləndirici və təbliğat xarakterli tədbirlərin həyata keçirilməsi, məlumatlılıq səviyyəsinin yüksəldilməsi, ailənin rolunun və valideyn məsuliyyətinin artırılması;

6.1.4.3.8. narkotik tərkibli bitkilərin qanunsuz əkinlərinin və yabanı halda bitmiş sahələrinin azaldılmasının təmin edilməsi;

6.1.4.3.9. ümumi təhsil müəssisələrində çalışan psixoloq və tibb işçiləri üçün təlimatın təsdiq edilməsi;

6.1.4.3.10. sosial şəbəkələr üzərindən mövzu ilə əlaqədar müxtəlif həştəqlərlə sosial aksiyaların həyata keçirilməsi, müvafiq sahədə antinarkotik təbliğatının gücləndirilməsinin təmin edilməsi;

6.1.4.3.11. narkomanlığa qarşı kompleks və qabaqlayıcı tədbirlər görülməsi, müsbət dinamikanın yaranması üçün şəraitin formalaşdırılması;

6.1.4.3.12. müvafiq məqsədlə müasir metodiki vəsaitlərdən istifadə etməklə təbliğat işinin təşkili və mövcud beynəlxalq təcrübənin tətbiqi, idmançıların maariflənmə səviyyəsinin artırılması;

6.1.4.3.13. qeyri-hökumət təşkilatları nümayəndələrinin narkotik vasitələrə və psixotrop maddələrə dair təyin edilmiş ekspertizalar, həmçinin narkotik asılılığından müalicə və reabilitasiya prosesi barədə məlumatlılıq səviyyəsinin artırılması;

6.1.4.3.14. aidiyyəti dövlət orqanları (qurumları) nümayəndələrinin iştirakı ilə seminarların keçirilməsi, müvafiq sahədə məlumatlılığın artırılmasının təmin edilməsi;

6.1.4.3.15. tələbələr arasında antinarkotik təbliğatı işinin təşkili məqsədilə elmi-praktiki konfransların və digər tədbirlərın həyata keçirilməsi, antinarkotik təbliğatı işinin əhatəsinin genişləndirilməsinin təmin edilməsi;

6.1.4.3.16. teatr tamaşalarının və filmlərin nümayişi;

6.1.4.3.17. narkomaniya, alkoqolizm və toksikomanlığa qarşı poster, videoçarx, qısametrajlı film və fləşmobların reklam lövhələrində, media subyektlərində və sosial şəbəkələrdə geniş yayımlanması;

6.1.4.3.18. televiziya və radio proqramlarının, məqalələrin media subyektlərində nümayiş olunması (dərc edilməsi), müvafiq sahədə məlumatlılıq səviyyəsi yüksək olan auditoriyanın genişləndirilməsi;

6.1.4.3.19. həqiqi hərbi xidmət keçənlər arasında narkomanlığın cəmiyyətə və insan sağlamlığına zərəri barədə təbliğat tədbirlərinin həyata keçirilməsi;

6.1.4.3.20. narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizə sahəsində sosial maarifləndirmə materiallarının, sosial çarxların media subyektlərində və sosial şəbəkələrdə nümayiş olunması;

6.1.4.3.21. media subyektləri və sosial şəbəkələr vasitəsilə narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində normativ hüquqi aktların müddəalarının və tələblərinin əhaliyə izah edilməsi, bu sahədə məlumatlılıq və savadlılıq səviyyəsinin artırılmasının təmin edilməsi;

6.1.4.3.22. maarifləndirici əyani vəsaitlərin çapı və yayılması;

6.1.4.4. **Gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:**

6.1.4.4.1. narkomanlıq xəstəliyindən xilas olan şəxslərin cəmiyyətə inteqrasiyası və məşğulluğunun təmin edilməsi məqsədilə birgə tədbirlər həyata keçirilərkən aidiyyəti dövlət orqanlarının (qurumlarının) fəaliyyətinin əlaqələndirilməsində çətinliklər yarana bilər. Bununla əlaqədar müvafiq işçi qrupların yaradılması nəzərdə tutulur.

## 7. Dövlət Proqramının maliyyələşdirilməsi

Dövlət Proqramında qeyd olunan tədbirlərin icrasının təmin edilməsi üçün tələb olunan xərclər müvafiq illər üzrə Azərbaycan Respublikasının dövlət büdcəsində aidiyyəti icraçı dövlət orqanları (qurumları) üçün nəzərdə tutulmuş vəsait hesabına maliyyələşdirilir.

## 8. Dövlət Proqramının həyata keçirilməsi üzrə TƏDBİRLƏR PLANI

| Sıra №-si | Tədbirin adı | Əsas icraçı orqan (qurum), fəaliyyət istiqamətlərinə uyğun olaraq | Digər icraçılar | İcra müddəti | Nəticə indikatorları | | |
|---|---|---|---|---|---|---|---|
| | | | | | ilkin nəticələr | aralıq nəticələr | yekun nəticələr |
| | | | 8.1. Təşkilati tədbirlər | | | | |
| 8.1.1. | Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair illik hesabatın hazırlanması | Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu | | Hər il fevral ayı | Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizənin nəticələrinə dair dövlət orqanlarının (qurumlarının) hesabatlarının toplanılması | Hesabatlar üzrə təhlil aparılması və onların qiymətləndirilməsi | Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair illik hesabatın hazırlanması, çap edilməsi, xidməti istifadə üçün aidiyyəti dövlət orqanlarına (qurumlarına) göndərilməsi və Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının rəsmi internet saytında yerləşdirilməsi |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 8.1.2. | Qanunsuz dövriyyədən çıxarılmış narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının ilkin tədqiqatını və məhkəmə ekspertizasını aparan laboratoriyaların texniki təminatının yaxşılaşdırılması üçün əlavə tədbirlər görülməsi | Ədliyyə Nazirliyi | Daxili İşlər Nazirliyi, Dövlət Gömrük Komitəsi, Dövlət Təhlükəsizliyi Xidməti | 2025–2030 | Laboratoriyaların texniki təminatının yaxşılaşdırılması üçün zəruri texniki vasitələrin müəyyən edilməsi | Laboratoriyaların texniki təminatının yaxşılaşdırılması üçün zəruri texniki vasitələrin əldə olunması | Zəruri texniki vasitələrin alınması və laboratoriyaların fəaliyyətində tətbiqi nəticəsində narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının ilkin tədqiqatının və məhkəmə ekspertizasının keyfiyyət səviyyəsinin daha da yaxşılaşdırılması |
| 8.1.3. | Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinin və narkomanlığın yayılmasının qarşısını almaq, habelə vətəndaşlara daha operativ və səmərəli xidmətin təşkili məqsədilə “802 qaynar xətt” xidmətinin maddi-texniki bazasının gücləndirilməsi | Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu | | 2025 | İnteraktiv səs qurğusunun və digər texniki vasitələrin alınması və quraşdırılması | Qaynar xəttin fəaliyyətinin səsli menyu vasitəsilə təmin edilməsi | Vətəndaş məmnunluğunun təmin edilməsi məqsədilə səmərəli xidmətin təşkili |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 8.1.4. | Azərbaycan Respublikasına qaçaqmalçılıq yolu ilə narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının daşınmasının qarşısının alınması istiqamətində əməliyyat-axtarış tədbirlərinin və profilaktik tədbirlərin gücləndirilməsi | Dövlət Sərhəd Xidməti | Dövlət Gömrük Komitəsi, Dövlət Təhlükəsizliyi Xidməti, Daxili İşlər Nazirliyi | 2025–2030 | Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qaçaqmalçılıq yolu ilə Azərbaycan Respublikasının ərazisinə daşınmasının qarşısının alınması məqsədilə müasir texnologiyaların tətbiqinin genişləndirilməsi | Müasir informasiya texnologiyalarının imkanlarından istifadə etməklə aidiyyəti dövlət orqanları (qurumları) ilə qarşılıqlı əməkdaşlıq çərçivəsində məlumat mübadiləsini artırmaqla əməliyyat-axtarış tədbirlərinin və profilaktik tədbirlərin gücləndirilməsi | Qaçaqmalçılıq yolu ilə narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının ölkəyə daşınması hallarının qarşısının alınması, belə halların aşkar olunma səviyyəsinin yüksəldilməsi |
| 8.1.5. | Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığın yayılmasına qarşı mübarizə sahəsində beynəlxalq təcrübədən istifadə etməklə əməkdaşların peşəkarlığının yüksəldilməsi və təcrübə mübadiləsi məqsədilə seminarların, təlimlərin və digər tədbirlərin keçirilməsi | Daxili İşlər Nazirliyi | Ədliyyə Nazirliyi, Səhiyyə Nazirliyi, Dövlət Gömrük Komitəsi, Dövlət Sərhəd Xidməti, Dövlət Təhlükəsizliyi Xidməti, aidiyyəti qeyri-hökumət təşkilatlarını cəlb etməklə | 2025–2030 | Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığın yayılmasına qarşı mübarizə sahəsində beynəlxalq təcrübənin öyrənilməsi | Beynəlxalq təcrübə tətbiq edilməklə əməkdaşların peşəkarlığının yüksəldilməsi və təcrübə mübadiləsi məqsədilə seminarların, təlimlərin və digər tədbirlərin keçirilməsi | Əməkdaşların peşəkarlığının yüksəldilməsi, onlar tərəfindən beynəlxalq təcrübənin mənimsənilməsinin və fəaliyyətlərində tətbiqinin təmin edilməsi |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 8.1.6. | Narkomaniya xəstəliyi ilə əlaqədar tibbi xarakterli məcburi tədbirlərin həyata keçiriləcəyi yeni tibb müəssisəsinin fəaliyyətə başlamasının təmin edilməsi | Səhiyyə Nazirliyi | Daxili İşlər Nazirliyi, Maliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi | 2025–2026 | Yeni tibb müəssisəsinin fəaliyyətə başlamasını təmin etmək məqsədilə maliyyələşmənin davam etdirilməsi və bununla əlaqədar aidiyyəti üzrə təkliflər verilməsi | Tibbi xarakterli məcburi tədbirlərin həyata keçiriləcəyi yeni tibb müəssisəsinin tikintisinin davam etdirilməsi | Tibbi xarakterli məcburi tədbirlərin həyata keçiriləcəyi yeni tibb müəssisəsinin tikintisinin başa çatdırılması və fəaliyyətinin təmin edilməsi |
| 8.1.7. | Narkoloji xidmətin keyfiyyətinin yaxşılaşdırılması məqsədilə reabilitasiya mərkəzlərinin yaradılması | Səhiyyə Nazirliyi | İqtisadiyyat Nazirliyi, Maliyyə Nazirliyi | 2025–2030 | Reabilitasiya mərkəzlərinin yaradılması ilə əlaqədar aidiyyəti üzrə təkliflər verilməsi, layihə-smeta sənədlərinin hazırlanması və maliyyələşmə mənbələrinin müəyyən edilməsi | Reabilitasiya mərkəzlərinin tikintisinə başlanılması | Reabilitasiya mərkəzlərinin formalaşdırılması prosesinin başa çatdırılması və onların fəaliyyətə başlaması |
| 8.1.8. | Narkomanlıq xəstəliyindən əziyyət çəkən şəxslərin müalicəsinin təkmilləşdirilməsi məqsədilə Azərbaycan Respublikasında fəaliyyət göstərən dövlət narkoloji tibb müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi | Səhiyyə Nazirliyi | İqtisadiyyat Nazirliyi, Maliyyə Nazirliyi | 2026–2028 | Dövlət narkoloji tibb müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi məqsədilə layihə-smeta sənədlərinin hazırlanması və maliyyələşmə mənbələrinin müəyyən edilməsi | Dövlət narkoloji tibb müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi məqsədilə zəruri təmir-tikinti işlərinin aparılması və avadanlıq alınması | Azərbaycan Respublikasında fəaliyyət göstərən dövlət narkoloji tibb müəssisələrində xidmət keyfiyyətinin yüksəldilməsi |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 8.1.9. | Narkoloji xidmətin təkmilləşdirilməsi və peşəkar kadrlarla təmin olunması məqsədilə həkim-narkoloq və klinik (tibbi) psixoloqların sayının artırılması istiqamətində əlavə tədbirlər görülməsi | Səhiyyə Nazirliyi | Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi (TƏBİB) | 2025–2030 | Narkoloji xidmətin təkmilləşdirilməsi üçün narkoloqlara və klinik (tibbi) psixoloqlara olan tələbatın müəyyən edilməsi | Həkim-narkoloq və klinik (tibbi) psixoloqların mövcud sayının zəruri səviyyəyə çatdırılması üçün təkliflərin hazırlanması və müvafiq tədbirlərin planlaşdırılması | Zəruri tədbirlər görülməsi nəticəsində narkoloji xidmətin təkmilləşdirilməsi və peşəkar kadrlarla təmin edilməsi |
| 8.1.10. | Narkomanlığın erkən müəyyən edilməsi və könüllülük prinsipi əsasında müalicənin səmərəli təşkili məqsədilə rayon (şəhər) xəstəxanalarında və poliklinikalarında fəaliyyət göstərən narkoloji tibb kabinetlərinin işinin təkmilləşdirilməsi istiqamətində əlavə tədbirlər görülməsi | Səhiyyə Nazirliyi, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi (TƏBİB) | | 2026–2028 | Rayon (şəhər) xəstəxanalarında və poliklinikalarında fəaliyyət göstərən narkoloji tibb kabinetlərinin işinin təkmilləşdirilməsi məqsədilə təkliflər hazırlanması | Narkoloji tibb kabinetlərinin işinin təkmilləşdirilməsi məqsədilə hazırlanmış təkliflərin aidiyyəti dövlət orqanları (qurumları) ilə razılaşdırılaraq zəruri tədbirlərin müəyyən edilməsi | Rayon (şəhər) xəstəxanalarında və poliklinikalarında fəaliyyət göstərən narkoloji tibb kabinetlərinin işinin təkmilləşdirilməsi və səmərəliliyinin artırılması məqsədilə zəruri tədbirlər görülməsi |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 8.1.11. | Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi ilə bağlı cinayət işləri üzrə cinayət mühakimə icraatı zamanı belə cinayətlərin törədilməsini doğuran səbəb və şəraitin öyrənilməsi, eləcə də qarşısının alınması üçün tədbirlər görülməsi | Daxili İşlər Nazirliyi | Ədliyyə Nazirliyi, Dövlət Gömrük Komitəsi, Dövlət Sərhəd Xidməti, Dövlət Təhlükəsizliyi Xidməti | 2025–2030 | Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi ilə bağlı cinayətlərin törədilməsini doğuran səbəb və şəraitin öyrənilməsi | Həmin səbəb və şəraitin aradan qaldırılması üçün təkliflərin hazırlanması və zəruri tədbirlərin müəyyən edilməsi | Zəruri tədbirlər görülməsi nəticəsində narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi sahəsində cinayətlərin torədilməsinə səbəb olan halların aradan qaldırılmasının təmin edilməsi, gələcəkdə baş verməsinin qarşısının alınması |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 8.1.12. | Müxtəlif yaş qrupları üzrə narkomanlığın yayılma dərəcəsinin müəyyən edilməsi məqsədilə sosial araşdırmalar aparılması, nəticələrinin ümumiləşdirilməsi və müvafiq təkliflərin hazırlanması | Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu | Gənclər və İdman Nazirliyi, Elm və Təhsil Nazirliyi, Sosial Tədqiqatlar Mərkəzi, aidiyyəti qeyri-hökumət təşkilatlarını cəlb etməklə | 2025–2030 | Sosial araşdırmaların aparılması üçün müvafiq sorğuların və digər tədbirlərin hazırlanması | Sosial araşdırmaların aparılması üçün narkomanlığın daha çox yayıldığı bölgələrin müəyyən edilməsi və həmin bölgələrdə əhalinin müxtəlif yaş qrupları arasında sorğuların və digər tədqiqat xarakterli tədbirlərin həyata keçirilməsi | Sosial araşdırmaların nəticələrinin təhlili, qiymətləndirilməsi, ümumiləşdirilməsi və müvafiq təkliflərin hazırlanması |
| 8.1.13. | Narkotik asılılığının qarşısının alınması məqsədilə beynəlxalq təcrübədə olan yeniliklərin tətbiqi | Səhiyyə Nazirliyi | Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu | 2025–2030 | Narkotik asılılığının qarşısının alınması sahəsində beynəlxalq təcrübənin öyrənilməsi | Müvafiq sahədə beynəlxalq təcrübədə olan yeniliklərin tətbiq edilməsi məqsədilə təkliflərin hazırlanması | Narkotik asılılığının qarşısının alınması məqsədilə beynəlxalq təcrübədə olan yeniliklərin tətbiqi |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 8.1.14. | Narkotik istifadəçiləri və onların yaxın qohumları, habelə onlarla birgə yaşayan digər şəxslər üçün onlayn məsləhətlər verilməsi məqsədilə klinik (tibbi) psixoloq və həkim-narkoloqların iştirakı ilə virtual dəstək mexanizminin yaradılması | Səhiyyə Nazirliyi | Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu | 2026 | Klinik (tibbi) psixoloq və həkim-narkoloqlardan ibarət virtual dəstək qrupları üçün təlimatın hazırlanması | Klinik (tibbi) psixoloq və həkim-narkoloqların virtual dəstək mexanizmi üzrə təlimlərə cəlb edilməsi | Həkim-narkoloq və klinik (tibbi) psixoloqlardan ibarət virtual dəstək qruplarının fəaliyyətə başlaması |
| 8.1.15. | Narkotik asılılığından əziyyət çəkən şəxslərin müalicəsi prosesində tətbiq üçün psixoloji dəstək proqramlarının hazırlanması | Səhiyyə Nazirliyi | Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu | 2025–2026 | Müvafiq istiqamətdə psixoloji dəstək proqramlarının layihələrinin hazırlanması | Psixoloji dəstək proqramlarının layihələrinin aidiyyəti dövlət orqanları (qurumları) ilə razılaşdırılaraq təsdiq edilməsi | Narkotik asılılığından əziyyət çəkən şəxslərin müalicəsi prosesində psixoloji dəstək proqramlarının tətbiqi |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 8.1.16. | Narkotik vasitələrin və psixotrop maddələrin gizli pərakəndə satış şəbəkəsinin ifşası və bu cinayəti törədən şəxslərin vaxtında məsuliyyətə cəlb edilməsi istiqamətində təşkilati və praktiki tədbirlərin gücləndirilməsi | Daxili İşlər Nazirliyi | Ədliyyə Nazirliyi, Dövlət Gömrük Komitəsi, Dövlət Sərhəd Xidməti, Dövlət Təhlükəsizliyi Xidməti | 2025–2030 | Gizli pərakəndə satış şəbəkələrinin ifşası istiqamətində mübarizə üsullarının təkmilləşdirilməsi və yeni mübarizə üsullarının tətbiqi ilə bağlı təkliflərin hazırlanması | Təkmilləşdirilmiş və yeni hazırlanmış mübarizə üsullarının tətbiqinin təmin edilməsi | Hüquq mühafizə orqanları tərəfindən həyata keçirilən əməliyyat-axtarış tədbirləri nəticəsində müsbət göstəricilərin əldə edilməsi |
| 8.1.17. | Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi məqsədilə istifadə edilən maliyyə mexanizmlərini, ödəniş üsul və vasitələrini, satışdan əldə edilən vəsaitin yönəldildiyi əsas sahələri (aktivləri), habelə belə vəsaitlərin əsas leqallaşdırılma üsullarını müəyyənləşdirməklə risk indikatorlarının formalaşdırılması | Maliyyə Monitorinqi Xidməti | Maliyyə Nazirliyi, Daxili İşlər Nazirliyi, Mərkəzi Bank, Dövlət Təhlükəsizliyi Xidməti | 2025–2027 | Risk indikatorlarının formalaşdırılması məqsədilə qurumlararası işçi qrupun yaradılması | Risk indikatorlarının formalaşdırılması | Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi məqsədilə istifadə edilən maliyyə mexanizmlərinin, ödəniş üsul və vasitələrinin, satışdan əldə edilən vəsaitin yönəldildiyi əsas sahələrin, belə vəsaitlərin əsas leqallaşdırılma üsullarının müəyyən edilməsi |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 8.1.18. | Cinayət təqibi üzrə məhkəməyədək icraat zamanı qanunsuz dövriyyədən çıxarılmaqla maddi sübut kimi götürülmüş narkotik vasitələrin, psixotrop maddələrin, onların prekursorlarının və güclü təsir edən maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməsi və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsi ilə bağlı normaların tətbiqi təcrübəsinin ümumiləşdirilməsi və həmin normaların tətbiqinə nəzarətin gücləndirilməsi | Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu | Daxili İşlər Nazirliyi, Dövlət Gömrük Komitəsi, Dövlət Sərhəd Xidməti, Dövlət Təhlükəsizliyi Xidməti, Ədliyyə Nazirliyi | 2025–2030 | Maddi sübut kimi götürülmüş narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının və güclü təsir edən maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməsi və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsinə məsul qurumların əməkdaşlarının normativ hüquqi aktların tələbləri barədə məlumatlılıq səviyyəsinin yüksəldilməsi | Maddi sübut kimi götürülmüş narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməsi və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsinin tətbiqi vəziyyətinin öyrənilməsi, ümumiləşdirilməsi, nəticələrin təhlili və müvafiq təkliflərin hazırlanması | Maddi sübut kimi götürülmüş narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının və güclü təsir edən maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməsi və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsinin geniş tətbiqinə nail olunması |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| **8.2. Normativ hüquqi bazanın təkmilləşdirilməsi** | | | | | | | |
| 8.2.1. | Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizə sahəsini tənzimləyən normativ hüquqi bazanın təkmilləşdirilməsinə dair təkliflər verilməsi | Nazirlər Kabineti | Daxili İşlər Nazirliyi, Səhiyyə Nazirliyi, Ədliyyə Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Dövlət Gömrük Komitəsi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Dövlət Sərhəd Xidməti, Dövlət Təhlükəsizliyi Xidməti, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu, digər aidiyyəti dövlət orqanları (qurumları) | 2025–2030 | Müvafiq normativ hüquqi akt layihələrinin hazırlanması | Müvafiq normativ hüquqi akt layihələrinin aidiyyəti dövlət orqanları (qurumları) ilə razılaşdırılması | Müvafiq normativ hüquqi akt layihələrinin təsdiq üçün aidiyyəti üzrə təqdim edilməsi |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 8.2.2. | Narkotik asılılığı olan şəxslərin narkoloji xəstələr üçün fəaliyyət məhdudiyyəti nəzərdə tutulmuş peşə növü və vəzifələr üzrə işə qəbulunun qarşısının alınmasından ötrü işəgötürənin məsuliyyətinin artırılması məqsədilə normativ hüquqi bazanın təkmilləşdirilməsinə dair təkliflər verilməsi | Nazirlər Kabineti | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Səhiyyə Nazirliyi, Ədliyyə Nazirliyi, Daxili İşlər Nazirliyi, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu | 2025 | İşəgötürənin məsuliyyətinin artırılması ilə bağlı normativ hüquqi akt layihələrinin hazırlanması | Müvafiq normativ hüquqi akt layihələrinin aidiyyəti dövlət orqanları (qurumları) ilə razılaşdırılması | Müvafiq normativ hüquqi akt layihələrinin təsdiq üçün aidiyyəti üzrə təqdim edilməsi |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 8.2.3. | Azərbaycan Respublikasının vətəndaşlarına, əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə narkotik istifadəçisi kimi qeydiyyatda olub-olmaması barədə arayışların verilməsi prosesinin sadələşdirilməsi məqsədilə bu xidmətin “ASAN xidmət” mərkəzləri tərəfindən həyata keçirilməsinin təmin edilməsi üçün normativ hüquqi aktlarda dəyişiklik edilməsi | Nazirlər Kabineti | Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, Səhiyyə Nazirliyi, Ədliyyə Nazirliyi, | 2026 | Şəxsin narkotik istifadəçisi kimi qeydiyyatda olub-olmaması barədə arayış verilməsi prosesinin sadələşdirilməsi ilə bağlı müvafiq normativ hüquqi akt layihələrinin hazırlanması | Müvafiq normativ hüquqi akt layihələrinin aidiyyəti dövlət orqanları (qurumları) ilə razılaşdırılması | Müvafiq normativ hüquqi akt layihələrinin təsdiq üçün aidiyyəti üzrə təqdim edilməsi |
| 8.2.4. | Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının fəaliyyətinin səmərəliliyinin artırılması məqsədilə Dövlət Komissiyası haqqında Əsasnamənin təkmilləşdirilməsinə dair təkliflər verilməsi | Nazirlər Kabineti | Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyası | 2026 | Dövlət Komissiyası haqqında Əsasnamənin təkmilləşdiril-məsinə dair təkliflərin hazırlanması | Müvafiq normativ hüquqi akt layihəsinin hazırlanması və aidiyyəti üzrə razılaşdırılması | Müvafiq normativ hüquqi akt layihəsinin təsdiq üçün aidiyyəti üzrə təqdim edilməsi |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 8.2.5. | Narkomanlıq xəstəliyinə düçar olan şəxslərin müalicəsi və reabilitasiyası sahəsində normativ hüquqi bazanın təkmilləşdirilməsinə dair təkliflər verilməsi | Nazirlər Kabineti | Səhiyyə Nazirliyi, Ədliyyə Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 2025–2027 | Müvafiq normativ hüquqi akt layihələrinin hazırlanması | Müvafiq normativ hüquqi akt layihələrinin aidiyyəti dövlət orqanları (qurumları) ilə razılaşdırılması | Müvafiq normativ hüquqi akt layihələrinin təsdiq üçün aidiyyəti üzrə təqdim edilməsi |
| **8.3. Beynəlxalq tədbirlər** | | | | | | | |
| 8.3.1. | Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizə sahəsində ixtisaslaşmış beynəlxalq təşkilatlarla və xarici ölkələrin aidiyyəti dövlət orqanları (qurumları) ilə əməkdaşlığın davam etdirilməsi | Xarici İşlər Nazirliyi | Daxili İşlər Nazirliyi, Ədliyyə Nazirliyi, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu, Dövlət Gömrük Komitəsi, Dövlət Sərhəd Xidməti, Dövlət Təhlükəsizliyi Xidməti | 2025–2030 | Müvafiq sahədə ixtisaslaşmış beynəlxalq təşkilatlarla və xarici ölkələrin aidiyyəti dövlət orqanları (qurumları) ilə əməkdaşlığın gücləndirilməsinə dair təkliflərin hazırlanması | Beynəlxalq təşkilatlarla və xarici ölkələrin aidiyyəti dövlət orqanları (qurumları) ilə əməkdaşlığın gücləndirilməsinə dair hazırlanmış təkliflər əsasında zəruri tədbirlərin müəyyən edilməsi | Zəruri tədbirlərin həyata keçirilməsi nəticəsində beynəlxalq əməkdaşlıq çərçivəsində müvafiq sahədə səmərəlilik göstəricilərinin yaxşılaşması |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 8.3.2. | Azərbaycan Respublikası ilə xarici dövlətlər arasında narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində imzalanmış beynəlxalq müqavilələrin öhdəliklərinin effektiv icrasının təmin edilməsi istiqamətində əlavə tədbirlər görülməsi | Xarici İşlər Nazirliyi | Daxili İşlər Nazirliyi, Ədliyyə Nazirliyi, Dövlət Gömrük Komitəsi, Dövlət Sərhəd Xidməti, Dövlət Təhlükəsizliyi Xidməti | 2025–2030 | Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində imzalanmış beynəlxalq müqavilələrin öhdəliklərinin icrasına dair əməkdaşlıq çərçivəsinin genişləndirilməsi | Müvafiq sahədə imzalanmış beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklər üzrə xarici dövlətlərlə ikitərəfli fəaliyyətin koordinasiyasının təmin edilməsi | Müvafiq sahədə imzalanmış beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklər çərçivəsində effektiv əməkdaşlığın təmin edilməsi |
| 8.3.3. | Narkotik vasitələrin qeyri-tibbi qəbulunun qarşısının alınması istiqamətində maarifləndirmə işinin səmərəli təşkili məqsədilə beynəlxalq təcrübənin öyrənilməsi və tətbiqi | Səhiyyə Nazirliyi | Xarici İşlər Nazirliyi, Elm və Təhsil Nazirliyi, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi (TƏBİB), aidiyyəti qeyri-hökumət təşkilatlarını cəlb etməklə | 2025–2030 | Maarifləndirmə işinin səmərəli təşkili məqsədilə qabaqcıl beynəlxalq təcrübənin öyrənilməsi | Maarifləndirmə işinin səmərəli təşkili məqsədilə beynəlxalq təcrübənin tətbiqi ilə bağlı təkliflərin hazırlanması | Maarifləndirmə işinin səmərəli təşkili məqsədilə beynəlxalq təcrübənin tətbiqi və bu işin keyfiyyətinin artırılması |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 8.3.4. | Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinin və narkomanlığın qarşısının alınmasına dair beynəlxalq konfranslarda, seminarlarda və digər tədbirlərdə aidiyyəti dövlət orqanları (qurumları) mütəxəssislərinin iştirakının təmin edilməsi | Xarici İşlər Nazirliyi | Daxili İşlər Nazirliyi, Səhiyyə Nazirliyi, Elm və Təhsil Nazirliyi, Ədliyyə Nazirliyi, Gənclər və İdman Nazirliyi, Dövlət Gömrük Komitəsi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Dövlət Sərhəd Xidməti, Dövlət Təhlükəsizliyi Xidməti | 2025–2030 | Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinin və narkomanlığın qarşısının alınmasına dair beynəlxalq konfrans, seminar və digər tədbirlər barədə məlumatların toplanılması | Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinin və narkomanlığın qarşısının alınmasına dair beynəlxalq konfrans, seminar və digər tədbirlərdə iştirak edəcək aidiyyəti dövlət orqanlarının (qurumlarının) nümayəndələri barədə təkliflər verilməsi | Aidiyyəti dövlət orqanlarının (qurumlarının) mütəxəssislərinin beynəlxalq konfranslarda, seminarlarda və digər tədbirlərdə iştirakının təmin edilməsi, müvafiq sahədə beynəlxalq təcrübənin öyrənilməsi və təcrübə mübadiləsinin aparılması |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 8.3.5. | Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsindən əldə edilən əmlakın leqallaşdırılmasının aşkarlanması və qarşısının alınması məqsədilə xarici ölkələrin aidiyyəti dövlət orqanları (qurumları) ilə və beynəlxalq təşkilatlarla əməkdaşlığın, məlumat və təcrübə mübadiləsinin genişləndirilməsi | Xarici İşlər Nazirliyi | Daxili İşlər Nazirliyi, Dövlət Gömrük Komitəsi, Dövlət Sərhəd Xidməti, Dövlət Təhlükəsizliyi Xidməti, Maliyyə Monitorinq Xidməti | 2025–2030 | Narkotik vasitələrin qanunsuz dövriyyəsindən əldə edilən əmlakın leqallaşdırılmasının qarşısının alınması məqsədilə qabaqcıl beynəlxalq təcrübənin öyrənilməsi | Beynəlxalq təcrübə əsasında məlumat mübadiləsinin genişləndirilməsi və təkliflərin hazırlanması | Müvafiq təcrübə əsasında Azərbaycan Respublikasında həyata keçiriləcək kompleks tədbirlərin müəyyən edilməsi |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| **8.4. Profilaktika və maarifləndirmə tədbirləri** | | | | | | | |
| 8.4.1. | Narkotik vasitələrdən və psixotrop maddələrdən sui-istifadə edən şəxslərin vaxtında aşkarlanması, könüllülük prinsipi əsasında müalicəsi və sağlam həyat tərzinə qaytarılması işinin təşkilində tibb müəssisələrinin ərazi üzrə polis orqanları ilə qarşılıqlı əlaqələrinin genişləndirilməsi | Səhiyyə Nazirliyi, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi (TƏBİB) | Daxili İşlər Nazirliyi, aidiyyəti qeyri-hökumət təşkilatlarını cəlb etməklə | 2025–2030 | Ərazi tibb müəssisələri ilə ərazi polis orqanları arasında müvafiq şəxslərlə bağlı məlumat mübadiləsinin gücləndirilməsi | Müvafiq sahədə ərazi tibb müəssisələrinin və ərazi üzrə polis orqanlarının fəaliyyətinin əlaqələndirilməsi | Narkotik vasitələrdən və psixotrop maddələrdən sui-istifadə edən şəxslərin könüllülük prinsipi əsasında müalicəsi və sağlam həyat tərzinə qaytarılması işinin təşkilində səmərəliliyin artırılması |
| 8.4.2. | Uşaq və gənclər üçün təşkil olunan narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizə ilə bağlı maarifləndirici yay düşərgələrinə internat tipli ümumi təhsil müəssisələrinin yuxarı sinif şagirdlərinin cəlb edilməsi | Gənclər və İdman Nazirliyi | Elm və Təhsil Nazirliyi, Gənclər Fondu, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu | 2025–2030 | İnternat tipli ümumi təhsil müəssisələrində risk qrupuna aid olan şagirdlərin müəyyən edilməsi | Yay düşərgələrinin seçimi meyarlarının müəyyən edilməsi | Aidiyyəti dövlət orqanları (qurumları) nümayəndələrinin iştirakı ilə düşərgələrdə şagirdlər arasında zərərli vərdişlərə qarşı təbliğat işlərinin aparılması və şagirdlərin asudə vaxtının səmərəli təşkili |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 8.4.3. | Narkotik vasitələrdən və psixotrop maddələrdən sui-istifadə edən şəxslər arasında aparılan profilaktik tədbirlərin keyfiyyətinin artırılması məqsədilə həmin tədbirləri icra edən şəxslərin peşəkarlığının yüksəldilməsi üzrə təlimlərin keçirilməsi | Səhiyyə Nazirliyi | Daxili İşlər Nazirliyi, Elm və Təhsil Nazirliyi, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi (TƏBİB), Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu | 2025–2030 | Müvafiq sahədə aidiyyəti qurumların nümayəndələrinin peşəkarlıqlarının artırılması məqsədilə keçiriləcək təlimlər barədə təkliflərin hazırlanması | Narkotik vasitələrdən və psixotrop maddələrdən sui-istifadə edən şəxslər arasında aparılan profilaktik tədbirlərin keyfiyyətinin artırılması məqsədilə həmin tədbirləri icra edən şəxslərin peşəkarlığının yüksəldilməsi üzrə təlimlərə cəlb olunacaq əməkdaşların müəyyən edilməsi | Müvafiq sahədə aparılan profilaktik tədbirlərin keyfiyyətinin artırılması məqsədilə həmin tədbirləri icra edən şəxslər üçün təlimlərin keçirilməsi nəticəsində onların peşəkarlıq səviyyəsinin artırılmasının təmin edilməsi |
| 8.4.4. | Narkomanlıq xəstəliyindən xilas olan şəxslərin əmək bazarına inteqrasiyası və məşğulluq imkanlarına çıxışının təmin edilməsi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | Daxili İşlər Nazirliyi, Səhiyyə Nazirliyi, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi (TƏBİB), qeyri-hökumət təşkilatlarını cəlb etməklə | 2025–2030 | Narkomanlıq xəstəliyindən xilas olan şəxslərin əmək bazarına inteqrasiyası və məşğulluğunun təmin edilməsi məqsədilə aidiyyəti qurumlar arasında məlumat mübadiləsinin səmərəliliyinin artırılması | Məlumat mübadiləsi əsasında narkomanlıq xəstəliyindən xilas olan şəxslərin məşğulluq imkanlarının qiymətləndirilməsi və məşğulluq tədbirlərinə cəlb edilmələri üçün müvafiq tədbirlər görülməsi | Narkomanlıq xəstəliyindən xilas olan şəxslərin əmək bazarına inteqrasiyası və məşğulluğunun təmin edilməsi |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 8.4.5. | Antinarkotik təbliğatı işinin gücləndirilməsi məqsədilə cəzaçəkmə müəssisələrində cəza çəkən şəxslər və penitensiar müəssisələrin əməkdaşları üçün təlimlərin keçirilməsi | Ədliyyə Nazirliyi | Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu, aidiyyəti dövlət orqanlarını (qurumlarını) və qeyri-hökumət təşkilatlarını cəlb etməklə | 2025–2030 | Antinarkotik təbliğatı işinin gücləndirilməsi məqsədilə cəzaçəkmə müəssisələrində cəza çəkən şəxslər və penitensiar müəssisələrin əməkdaşları üçün təlim mövzularının müəyyən edilməsi və təlimlərin keçirilməsi ilə əlaqədar ilkin hazırlıq tədbirlərinin görülməsi | Təlim aparacaq şəxslərin təyin edilməsi və təlim zamanı istifadə olunacaq əyani vəsaitlərin hazırlanması | Cəzaçəkmə müəssisələrində cəza çəkən şəxslər arasında sağlam həyat tərzinin təbliği, həmçinin penitensiar müəssisələrin əməkdaşları üçün bu sahədə təlimlərin keçirilməsi, məlumatlılıq səviyyəsinin artırılması |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 8.4.6. | Ümumi təhsil müəssisələrinin yuxarı sinif şagirdləri arasında təbliğat işlərinin daha təsirli metodlarla aparılması, rayon və şəhərlərdə uşaq və gənclər arasında maarifləndirmə işinin səmərəli təşkili məqsədilə müxtəlif mövzularda seminar, konfrans, dəyirmi masa və digər tədbirlərin keçirilməsi, həmçinin idman yarışlarının təşkili | Gənclər və İdman Nazirliyi | Səhiyyə Nazirliyi, Elm və Təhsil Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, rayon və şəhər icra hakimiyyətləri | 2025–2030 | Uşaq və gənclər arasında maarifləndirmə işinin səmərəli təşkili məqsədilə müxtəlif mövzularda seminar, konfrans, dəyirmi masa və digər tədbirlərin keçirilməsinə, həmçinin idman yarışlarının təşkilinə dair təkliflərin hazırlanması | Maarifləndirmə işinin səmərəli təşkili məqsədilə müxtəlif mövzularda seminar, konfrans, dəyirmi masa və digər tədbirlərin keçirilməsi, həmçinin idman yarışlarının təşkili üçün zəruri hazırlıq tədbirlərinin görülməsi | Uşaq və gənclər arasında maarifləndirmə işinin səmərəli təşkili məqsədilə müxtəlif mövzularda seminar, konfrans, dəyirmi masa və digər tədbirlərin keçirilməsi, həmçinin idman yarışlarının təşkili |
| 8.4.7. | Narkotik asılılığı problemində ailələrin rolu, valideyn məsuliyyəti və bu sahə üzrə məlumatlılığın artırılması | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | Daxili İşlər Nazirliyi, Elm və Təhsil Nazirliyi, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu, qeyri-hökumət təşkilatlarını cəlb etməklə | 2025–2030 | Həyata keçirilməli olan tədbirlərə dair təkliflərin hazırlanması | Həyata keçirilməli olan tədbirlərin müəyyən edilməsi və hazırlanması | Maarifləndirici və təbliğat xarakterli tədbirlərin həyata keçirilməsi, məlumatlılıq səviyyəsinin yüksəldilməsi, ailənin rolunun və valideyn məsuliyyətinin artırılması |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 8.4.8. | Narkotik tərkibli bitkilərin qanunsuz əkinlərinin və yabanı halda bitmiş sahələrinin aşkar olunması və həmin bitkilərin məhv edilməsi, habelə bu məqsədlə hər il xüsusi kompleks əməliyyat-axtarış tədbirlərinin və profilaktik tədbirlərin həyata keçirilməsi | Daxili İşlər Nazirliyi | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Elm və Təhsil Nazirliyi, Dövlət Sərhəd Xidməti, rayon və şəhər icra hakimiyyətlərini və bələdiyyələri cəlb etməklə | 2025–2030 | Narkotik tərkibli bitkilərin qanunsuz əkinlərinin və yabanı halda bitmiş sahələrinin aşkar olunması | Hər il xüsusi əməliyyat-axtarış tədbirlərinin keçirilməsi və məhvetmə prosesinin foto və video çəkiliş aparmaqla təşkili | Narkotik tərkibli bitkilərin qanunsuz əkinlərinin və yabanı halda bitmiş sahələrinin azaldılmasının təmin edilməsi |
| 8.4.9. | Narkomanlığın profilaktikasının daha səmərəli təşkili məqsədilə ümumi təhsil müəssisələrində çalışan psixoloq və tibb işçiləri üçün təlimatın təsdiq edilməsi | Elm və Təhsil Nazirliyi | Səhiyyə Nazirliyi | 2026 | Ümumi təhsil müəssisələrində çalışan psixoloq və tibb işçiləri üçün müvafiq təlimat layihəsinin hazırlanması | Ümumi təhsil müəssisələrində çalışan psixoloq və tibb işçiləri üçün təlimat layihəsinin aidiyyəti dövlət orqanları (qurumları) ilə razılaşdırılması | Ümumi təhsil müəssisələrində çalışan psixoloq və tibb işçiləri üçün təlimatın təsdiq edilməsi |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 8.4.10. | Antinarkotik təbliğatı işlərinin sosial şəbəkələr üzərindən aparılması məqsədilə müxtəlif həştəqlərlə sosial aksiyaların həyata keçirilməsi | Gənclər və İdman Nazirliyi | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Gənclər Fondu, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu, digər aidiyyəti dövlət orqanları (qurumları) | 2025–2030 | Mövzu ilə əlaqədar müxtəlif həştəqlərlə sosial aksiyaların həyata keçirilməsinə dair təkliflərin hazırlanması | Mövzu ilə əlaqədar keçiriləcək sosial aksiyaların planlaşdırılması və hazırlanması | Sosial şəbəkələr üzərindən mövzu ilə əlaqədar müxtəlif həştəqlərlə sosial aksiyaların həyata keçirilməsi, müvafiq sahədə antinarkotik təbliğatının gücləndirilməsinin təmin edilməsi |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 8.4.11. | Narkomanlığın xüsusilə geniş yayıldığı rayon və şəhərlərdə narkotik vasitələrin qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı kompleks tədbirlərin həyata keçirilməsi | Daxili İşlər Nazirliyi | Elm və Təhsil Nazirliyi, Səhiyyə Nazirliyi, Gənclər və İdman Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi (TƏBİB), Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu, rayon və şəhər icra hakimiyyətləri, qeyri-hökumət təşkilatlarını cəlb etməklə | 2025–2030 | Müvafiq rayon və şəhərlərdə narkomanlığı doğuran səbəb və şəraitin öyrənilməsi | Aidiyyəti qurumlar tərəfindən vəziyyətin qiymətləndirilməsi | Narkomanlığa qarşı kompleks və qabaqlayıcı tədbirlər görülməsi, müsbət dinamikanın yaranması üçün şəraitin formalaşdırılması |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 8.4.12. | Narkotik vasitələrin və psixotrop maddələrin qəbulu ilə bağlı problemlər haqqında idmançıları maarifləndirmək məqsədilə müasir metodiki vəsaitlərdən istifadə etməklə təbliğat işinin təşkili, bu sahədə qadağan edilmiş maddə və üsullardan istifadəyə qarşı mübarizə mexanizmlərinin təkmilləşdirilməsi, aidiyyəti dövlət orqanları (qurumları) ilə əlaqə yaradılması və mövcud beynəlxalq təcrübənin tətbiqi | Gənclər və İdman Nazirliyi | Səhiyyə Nazirliyi, Azərbaycan Milli Antidopinq Agentliyi, digər aidiyyəti dövlət orqanları (qurumları) | 2025–2030 | Narkotik vasitələrin və psixotrop maddələrin qəbulu ilə bağlı problemlər haqqında idmançıları maarifləndirmək məqsədilə mövcud beynəlxalq təcrübənin öyrənilməsi və müasir metodiki vəsaitlərin hazırlanması | Bu istiqamətdə mexanizmin təkmilləşdirilməsi və aidiyyəti dövlət orqanları (qurumları) ilə əlaqə yaradılması | Müvafiq məqsədlə müasir metodiki vəsaitlərdən istifadə etməklə təbliğat işinin təşkili və mövcud beynəlxalq təcrübənin tətbiqi, idmançıların maariflənmə səviyyəsinin artırılması |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 8.4.13. | Qeyri-hökumət təşkilatları nümayəndələrinin narkotik vasitələrə və psixotrop maddələrə dair təyin edilmiş ekspertizalar, həmçinin narkotik asılılığından müalicə və reabilitasiya prosesi barədə məlumatlandırılması məqsədilə görüşlərin təşkili | Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu | Ədliyyə Nazirliyi, Səhiyyə Nazirliyi, Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi | Hər il | Qeyri-hökumət təşkilatlarının fəal nümayəndələrinin müəyyən edilməsi | Müvafiq ekspertiza, müalicə və reabilitasiya müəssisələrində görüşlərin təşkili | Qeyri-hökumət təşkilatları nümayəndələrinin narkotik vasitələrə və psixotrop maddələrə dair təyin edilmiş ekspertizalar, həmçinin narkotik asılılığından müalicə və reabilitasiya prosesi barədə məlumatlılıq səviyyəsinin artırılması |
| 8.4.14. | Narkotik və psixotrop maddələr haqqında məlumatlılığın artırılması məqsədilə ümumi təhsil müəssisələrinin rəhbərliyi, müəllimləri, psixoloqları, valideynlər şurasının üzvləri və şagirdləri üçün seminarların keçirilməsi | Elm və Təhsil Nazirliyi | Daxili İşlər Nazirliyi, Səhiyyə Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu, aidiyyəti qeyri-hökumət təşkilatlarını cəlb etməklə | 2025–2030 | Mövzuya uyğun olaraq aidiyyəti dövlət orqanları (qurumları) tərəfindən həmin şəxslər üçün vəsaitlərin və təqdimatların hazırlanması | Vəsaitlər təqdim edilməsi və təqdimatların keçirilməsi | Aidiyyəti dövlət orqanları (qurumları) nümayəndələrinin iştirakı ilə seminarların keçirilməsi, müvafiq sahədə məlumatlılığın artırılmasının təmin edilməsi |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 8.4.15. | Ali, orta ixtisas və peşə təhsili müəssisələrində tələbələr arasında antinarkotik təbliğatı işinin əhatəsinin genişləndirilməsi məqsədilə gənclər təşkilatları tərəfindən elmi-praktiki konfransların və digər tədbirlərin həyata keçirilməsi | Elm və Təhsil Nazirliyi | Gənclər və İdman Nazirliyi, Gənclər Fondu, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu və aidiyyəti dövlət orqanları (qurumları) | 2025–2030 | Tələbələr arasında antinarkotik təbliğat işinin təşkili məqsədilə elmi-praktiki konfranslarla və digər tədbirlərlə bağlı təkliflərin hazırlanması | Ali və orta ixtisas təhsili müəssisələrində gənclər təşkilatları nümayəndələrinin tədbirlərə cəlb edilməsi | Tələbələr arasında antinarkotik təbliğatı işinin təşkili məqsədilə elmi-praktiki konfransların və digər tədbirlərin həyata keçirilməsi, antinarkotik təbliğatı işinin əhatəsinin genişləndirilməsinin təmin edilməsi |
| 8.4.16. | Sağlam həyat tərzinin təbliği və narkomanlığın zərəri ilə bağlı teatr tamaşalarının, filmlərin hazırlanması | Mədəniyyət Nazirliyi | Gənclər və İdman Nazirliyi, aidiyyəti qeyri-hökumət təşkilatlarını cəlb etməklə | 2026–2030 | Teatr tamaşalarının və filmlərin ssenarilərinin yazılıb hazırlanması | Teatr tamaşalarının və filmlərin çəkilib hazırlanması | Teatr tamaşalarının və filmlərin nümayişi |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 8.4.17. | Uşaq və gənclərin iştirakı ilə narkomaniya, alkoqolizm və toksikomanlığa qarşı poster, videoçarx, qısametrajlı film və fləşmobların hazırlanması | Mədəniyyət Nazirliyi | Səhiyyə Nazirliyi, Gənclər və İdman Nazirliyi, Elm və Təhsil Nazirliyi, Daxili İşlər Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu | 2025–2030 | Uşaq və gənclərin iştirakı ilə narkomaniya, alkoqolizm və toksikomanlığa qarşı poster, videoçarx, qısametrajlı film və fləşmoblarla bağlı təkliflərin hazırlanması | Narkomaniya, alkoqolizm və toksikomanlığa qarşı poster, videoçarx, qısametrajlı film və fləşmobların hazırlanması | Narkomaniya, alkoqolizm və toksikomanlığa qarşı poster, videoçarx, qısametrajlı film və fləşmobların reklam lövhələrində, media subyektlərində və sosial şəbəkələrdə geniş yayımlanması |
| 8.4.18. | Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə tədbirləri barədə media subyektlərində televiziya və radio proqramlarının təşkili və məqalələrin dərc edilməsi | Audiovizual Şura | Medianın İnkişafı Agentliyi | 2025–2030 | Mütəxəssisləri cəlb etməklə televiziya və radio proqramlarının, məqalələrin məzmununun müəyyən edilməsi | Televiziya və radio proqramlarının, məqalələrin hazırlanması | Televiziya və radio proqramlarının, məqalələrin media subyektlərində nümayiş olunması (dərc edilməsi), müvafiq sahədə məlumatlılıq səviyyəsi yüksək olan auditoriyanın genişləndirilməsi |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 8.4.19. | Azərbaycan Respublikasının Silahlı Qüvvələrində və hərbi xidmət nəzərdə tutulmuş digər dövlət orqanlarında (dövlət oqranlarının strukturuna daxil olan qurumlarda) həqiqi hərbi xidmət keçənlər arasında narkomanlığın cəmiyyətə və insan sağlamlığına zərəri barədə təbliğat işinin gücləndirilməsi | Müdafiə Nazirliyi, Daxili İşlər Nazirliyi, Ədliyyə Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Dövlət Mühafizə Xidməti, Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti, Dövlət Sərhəd Xidməti, Dövlət Təhlükəsizliyi Xidməti, Xarici Kəşfiyyat Xidməti, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti, Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi | Aidiyyəti dövlət orqanları (qurumları) | 2025–2030 | Müvafiq metodiki tövsiyələrin, əyani vəsaitlərin və digər zəruri təbliğat materiallarının hazırlanması | Təbliğat tədbirlərinin müəyyən edilməsi | Həqiqi hərbi xidmət keçənlər arasında narkomanlığın cəmiyyətə və insan sağlamlığına zərəri barədə təbliğat tədbirlərinin həyata keçirilməsi |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 8.4.20. | Müasir informasiya texnologiyalarının imkanları nəzərə alınmaqla, sağlam həyat tərzinin təbliği və narkomanlığın zərəri ilə bağlı sosial maarifləndirmə işinin daha da genişləndirilməsi, sosial çarxların hazırlanması və media subyektlərində, sosial şəbəkələrdə geniş işıqlandırılması | Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu | Audiovizual Şura, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Daxili İşlər Nazirliyi, Gənclər və İdman Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, “Bakı Metropoliteni” Qapalı Səhmdar Cəmiyyəti, Dövlət Reklam Agentliyi, Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi | 2025–2030 | Müasir informasiya texnologiyalarının imkanları nəzərə alınmaqla sosial maarifləndirmə materiallarının və yeni sosial çarxların mövzularının müəyyən edilməsi | Müasir informasiya texnologiyalarının imkanları nəzərə alınmaqla hazırlanmış sosial maarifləndirmə materiallarının və yeni sosial çarxların hazırlanması | Sosial maarifləndirmə materiallarının və sosial çarxların media subyektlərində və sosial şəbəkələrdə nümayiş olunması |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 8.4.21. | Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində normativ hüquqi aktların müddəalarının və tələblərinin əhaliyə izah edilməsi | Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu | Ədliyyə Nazirliyi, Daxili İşlər Nazirliyi, Audiovizual Şura, Medianın İnkişafı Agentliyi | 2025–2030 | Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində normativ hüquqi aktların müddəaları və tələbləri üzrə materialların hazırlanması | Müvafiq sahədə normativ hüquqi aktların müddəalarının və tələblərinin əhaliyə izah edilməsi üsullarının müəyyən edilməsi | Media subyektləri və sosial şəbəkələr vasitəsilə narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində normativ hüquqi aktların müddəalarının və tələblərinin əhaliyə izah edilməsi, bu sahədə məlumatlılıq və savadlılıq səviyyəsinin artırılmasının təmin edilməsi |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 8.4.22. | Antinarkotik təbliğatı və təşviqatı işlərinin gücləndirilməsi məqsədilə maarifləndirici əyani vəsaitlərin hazırlanması | Daxili İşlər Nazirliyi | Elm və Təhsil Nazirliyi, Səhiyyə Nazirliyi, Gənclər və İdman Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu | 2027–2028 | Beynəlxalq təcrübə öyrənilməklə maarifləndirici əyani vəsaitlərə dair materialların toplanılması | Maarifləndirici əyani vəsaitlərin hazırlanması | Maarifləndirici əyani vəsaitlərin çapı və yayılması |

**Qeyd.** Azərbaycan Respublikasının Ali Məhkəməsinə tövsiyə edilsin ki, bu Dövlət Proqramının 8.1.5-ci, 8.1.11-ci, 8.2.1-ci, 8.2.2-ci, 8.3.1-ci, 8.3.4-cü, 8.3.5-ci, 8.4.21-ci yarımbəndlərində, Azərbaycan Respublikasının Baş Prokurorluğuna tövsiyə edilsin ki, bu Dövlət Proqramının 8.1.4-cü, 8.1.5-ci, 8.1.11-ci, 8.1.16–8.1.18-ci, 8.2.1-ci, 8.2.2-ci, 8.2.5-ci, 8.3.1-ci, 8.3.4-cü, 8.3.5-ci, 8.4.21-ci yarımbəndlərində nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsində iştirak etsinlər.